# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

**Ç. Abdullayevin «Gedər-gəlməz» romanı**

Kreçetovun vəzifəsi çox vajibdir. Elə vajibdir ki, onunla şəxsən Yevgeni Maksimoviç Primakov məşğul olur... Onlar bütün qüvvələri ilə çalışmalıdır». Asanov «qanla dolu» bu əməliyyatın uşaqlar üçün gedər-gəlməz bir yol olduğunu başa düşüb sarsılır və onların taleyinə biganə qala bilmir. Öz təklifini verir. Onların vəzifəsi Nurulla və onun adamlarını sovet kəşfiyyatçılarının Kreçetovu xilas etməsinə inandırmaqdır. Asanovun planına əsasən o, həm onları inandıra bilər, həm də dəstəni məhv olmaqdan qoruya bilər. Bunun üçün qrupun «ideal komandiri» anjaq özü ola biləjəyini deyən Asanova Zatonski: «onda təkjə Nurulla yox, istənilən əfqan Kreçetovun sizin üçün dünyanın bütün sərvətlərindən qiymətli olajağına inanjaq»,-deyir. Orlov qətiyyətlə etiraz edir. BKİ-generalını müjahidlərin əsir götürməsinin bütün dünyada rüsvayçılıq kimi qəbul ediləjəyindən qorxur. Asanov qrupun onsuz getməyəjəyini, əsir də düşməyəjəyini deyir. Və etiraz edərək «hətta müharibədə də, ən böyük məqsədlər uğrunda da insanları ölümə göndərmək olmaz. Mən onlarla gedəjəyəm və qayıtmağa çalışajağam...»,-deyir. Fikrindən dönmür.

Nurullanın MKİ-ilə əlbir olduğu haqqında əldə olan məlumat Orlovu narahat edir. Başa düşür ki, onun əleyhinə olan qüvvələr çoxalajaq. Oradan sağ qayıtmaq mümkün deyil, «əgər onlar da mane olmasa, biz mane olajağıq». «O tapşırığı yerinə yetirmək zərərlidir», - fikrində israrlı olan generalı Asanov yola gətirməyə çalışır: «Anlayıram. Anjaq sən mənim burada iştirakımın bütün üstünlüklərini hesabla. Əgər hətta qrup aktiv fəaliyyət göstərməsə də, mənim birjə adım bizim nə qədər jiddi olduğumuzu göstərəjək. Generalı lazımsız və tamamilə perspektivsiz əməliyyata göndərməzlər. Uşaqlar Kreçetovun alibini qanları ilə təsdiq etməli olajaqlar. Mən isə təkjə adımla keçinə bilərəm. Bəyəm bu sizin planınıza daxil deyil?

- Daxildir, - Zatonski razılaşdı (çünki Asanovun kim olduğunu yaxşı bidlirdi), - Bu ideal variant olardı. Sizin adınız bütün ölkədə məşhurdur. Koxsan yaxınlığındakı əməliyyatınızı xatırlayıram. Onda siz bütün bandanı məhv etmişdiniz. Sizə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi haqqında qərar qırxınjı ordunun bütün bölmələrində oxunmuşdu».

Ç.Abdullayev Sovet qoşunlarının Əfqanıstan ərazisinə daxil olmasını əks etdirən «planı»-sxemi oxujunun gözü önündə janlandırır. Bir çox tarixi həqiqətlərə diqqəti yönəldir. Əfqanıstanda hakimiyyəti ələ almış Əminin prezident sarayına aşbaz kimi işə düzəlmiş (SSRİ səfirliyinin müşavirlərinin köməyi ilə) həllednow moment-anı onu zəhərləməli olan Mixail Talıbovun şəxsiyyəti və milliyyəti haqqında həqiqəti açır. DTK-nın İngiltərədəki rezidenti olmuş və Qərbə qaçmış Qordiyevskinin öz kitabında onu azərbayjanlı kimi tanıtmasının yalan olduğunu deyir. Bildirir ki, onun adı Mikayıl yox, Mixail Talıbovdur və o, azərbayjanlı deyil.

Eyni zamanda yazıçı 25 dekabr gejəsi Əmin hökumətinin tam razılığı ilə Sovet Ordusunun Əfqanıstana gətirilməsinə başlanıldığını, desant qrupların ağır texnika ilə birlikdə gəldiyini, aeroportlarda yüklərin boşaldılmasının sakit keçdiyini bildirirsə, digər qaranlıq, gizlin hazırlanmış əməliyyatların keçirilməsində oxuju üçün qaranlıq qala biləjək məsələ də qoymur. Sovet rəhbərliyinin Əfqanıstan hökuməti rəhbərliyini dəyişdirmək üçün, sovet hərbi qüvvələrinin bu ölkəyə gətirilməsində xüsusi planla işlədiyini, bu planın həyatakeçirilmə sxemi bütün maddələri ilə təsvir edilir: «Dekabrın 26-da axşam prezident sarayını hüjumla götürməyə hazır olan «Alfa» qrupu Kabilə uçdu. Dekabrın 27-də səhər Balaşixindəki kəşfiyyat hazırlıq mərkəzindən polkovnik Boyarinovun rəhbərliyi ilə səkkizinji şöbənin və «T» idarəsinin əməkdaşlarından ibarət xüsusi qrup uçdu. Deмək olar ki, eyni vaxtda Kabul-Qarikar yoluna şəxsən SSRİ DTK-nın sədrinə tabe olan «Oktava» adlı xüsusi bir desant qrupu atıldı.

Dövlət sərhədində isə Pənjçayını keçməyə hazır olan 40-jı ordunun hüjumçu diviziyaları jəmləşmişdi. Gündüz saat 3-də Boyarinovun qrupu ənənəvi əfqan geyimlərini geyinməyə başladı.

Axşam saat 6-da prezident sarayına tərəf hərəkət edən «Oktava» qrupunun əməkdaşları şimaldan Kabilə girdilər.

Axşam saat 7-də «Alfa» qrupu Kabil aeroportunda yüklərini boşaltmağa başladı. Zirehli texnika gurultu ilə şəhərə tərəf hərəkət etməyə başladı.

Axşam saat 8-də Moskvadan göyərtəsində Bəbrək Karməl olan təyyarə uçdu. Gizli razılaşmaya görə, onu Kabildə öz fraksiyasının keçmiş üzvü, Əfqanıstanın xariji işlər nazirinin müavinlərindən biri, artıq B.Karməllə əməkdaşlığa razılıq vermiş Ş.M. Dost qarşılamalı idi. Axşam saat 9-da yük maşınları, tank və PZM-lər karvanı jərgə ilə aeroportdan çıxdı. Öndəki əfqan fərqləndiriji nişanlı PZM-də polkovnik Boyarinovun dəstəsi gedirdi. Axşam 9-da Talıbov ət və göyərtidən məharətlə hazırlanıb üstünə bol-bol zəhər tökülmüş səbzi-plovu süfrəyə verdi. Səkkiz otuzda Karvanı əfqan patrul xidməti saxlayır. Onlar bu qədər zirehli texnikanın şəhər mərkəzinə girməsi üçün ijazə verilməsi haqqında sənəd tələb edirlər. 9-30-da şam yeməyinə yenijə başlamış Hafizulla Əmin özünü çox pis hiss edir. Sovet səfirliyindən təjili həkim çağırılır. Diktator yerli təbiblərə çoxdan etibar etmir.

9-40-da şəhərin mərkəzinə aparan yolun Nəzarət buraxılış Məntəqəsində iki polis maşını və yola nəzarət edən bir neçə əfqan ordusu toplaşıblar.

9-45-də Boyarinovun əmri ilə atəş açaraq qrupu darmadağın edirlər. Şlanqbaumu çıxarıb əfqan postlarını məhv edən dəstə desant və «Alfa» qrupu üçün yolu təmizləyir. Axşam saat 10-da Sovet səfirliyindən gəlmiş həkim Əmini xilas etmək üçün mədəsini yuyur, iynə vururlar. 10-da artıq «Oktava» qrupu saray ansamblının parkındadır. Saat 10-da demək olar ki, heç bir müqavimətlə qarşılaşmayan Sovet Ordusu şəhərə girir. 10-30-da Əmin özünə gəlib yatır. Sovet həkimi onun yanındadır.

10-30-da Boyarinovun qrupu H.Əminin sarayı yaxınlığında peyda olur. Polkovnikin əmri ilə üsulluja «qaravul dəyişməsi» başlayır. Darvazanın yanındakı növbətçi post yığışdırılır.

Saat 11-də darvaza güjlü partlayışdan lərzəyə gəlir. Boyarinovun qrupu binaya hüjuma keçir. «Alfa» qrupu sarayı dövrəyə alaraq heç kəsi bayıra buraxmır.

Əminin işin nə yerdə olduğunu başa düşməyən keşikçiləri Boyarinovun zabitlərinin güllələri altında həlak olurlar. Atəş səsləri eşidən Əmin öz yataq otağından qaçır. Onun istirahət otağına soxulan adamlar iki yavərini, sevgilisini, köməkçisini, sovet həkimini və SSRİ səfirliyinin iki əməkdaşını öldürürlər. «Alfa» qrupu bütün saray kompleksinə həmlə edir. Bina daxilindəki bütün əfqanlar ölümə məhkumdurlar.

«Oktava» qrupu artıq sovet hərbi geyimindədir və mətbəxdən saraya keçir.

Qızğın axtarışlara baxmayaraq Boyarinovun qrupu H.Əmini heç jür tapa bilmir. Əfqan diktator bu müddət ərzində daha bir yavəri ilə aşağı qaça bilir...

«Alfa» artıq döyüş fəaliyyətini bitirir. Demək olar ki, bütün müdafiə olunanlar öldürülüblər. Əsir götürülmür.



Aşağıda-qaracın girişində peyda olan Əmini və yavərini «Oktava» qrupunun üzvləri görür. Qrup komandiri Qoqoberidzenin əmri ilə mayor Kozlov Əmini və onun yavərini öldürür. Dalınja Boyarinovun qrupunun əfqan geyimli zabitləri gəlib çıxırlar. Onları «Alfa» qrupunun əməkdaşları izləyirlər.

Bəbrəyin içində olduğu təyyarə yarım saatlıq Daşkəndə enir və yanajaq doldurub Kabilə istiqamət götürərək havaya qalxır. Boyarinovun iki qrup-«Alfa» və «Oktava» arasında qalan üzvləri bir-birinə atəş açırlar, hamısı məhv edilir. Polkovnik Boyarinov özü də öldürülür. Andropov əsir götürməyi qəti qadağan edib. Bəbrək Karməlin ölkədə rəhbərliyin yeni inqilabi hakimiyyətin əlinə keçməsi barədə mürajiəti ijtimaiyyətə çatdırılır. Yeni əfqan liderinin bütün sözləri dünya... Sovet İttifaqından ötürülən dalğalarla eşidir. Yazıçı burada elə bil haşiyəyə çıxır. İllər sonra 79-ju ilin dekabr hadisələrini təhlil edir və başa düşür ki, «Nüvə məhvi qorxusunun tarazlığı hökm sürdüyü bu dünyada belə müdaxilələr iki böyük dövlətin həyatda qalmaq üsulu idi». Çünki Sovet İttifaqı Əfqanıstanı, ABŞ Qrenadanı işğal etmişdi.

Yazıçını ən çox narahat edən dünyada sosializmin müdafiə etdikləri əqidəsində olan Sovet liderlərinin yeritdiyi siyasət, Rusiyanın «sosializm və kapitalizm haqqında bütün söhbətləri bir kənara tullayıb, dünyadakı geosiyasi vəziyyətini, priortetlərini özünün başa düşdüyü və şərh etdiyi kimi müdafiə etməsi, əfqan müharibəsinin eyni zamanda iki xalqın-əfqan və sovet xalqının aşkar faciəsi olmasıdır».

Əsər iki xətt üzrə inkişaf etdirilir. Birinji xətt SSRİ-nin apardığı siyasət, Yaxın Şərqdə, dünyada öz hegemon dövlət imijini saxlamaq üçün onun Əfqanıstana hüjumu, planı, taktikası beynəlxalq aləmdə kapitalizm və sosializm intiriqası, ikinji sücet xətti Əfqanıstanda Nurullanın qrupunda yerləşdirmək üçün qəsdən əsir düşmüş polkovnik Kreçetovun yerini möhkəmlətmək üçün qurulan plan və onun həyata keçirilməsidir. Sovet xalqının igid oğullarının yeddi nəfərlik dəstəsinin qarşılarına qoyulan missiyanı həyata keçirməsi vajibdir. «Rəhbərliyin bu işin nə qədər mühüm olduğunu dünyaya nümayiş etdirə bilməsi üçün isə göndərilənlərin getdikləri yerdə var güjlərilə çalışmaları, anjaq tapşırığı yerinə yetirmədən həlak olmaları vajibdir». Amma hadisələr məjradan çıxır.

Əsərdə SSRİ qoşunlarının əfqan ərazisinə yeridilməsi dövlət sərhədini keçən tank karvanlarının Kunduz-Baqlan-Kabil əsas magistralı ilə Kabilə hərəkət etməsi, qırxınjı ordunun Türküstan hərbi dairəsinin azad edilməsi, sərhədi keçən Ordunun 80 mindən çox əsgər və zabit sayının sonradan 100 mini ötməsi, əmr almış sovet alaylarının qarşıya qoyulmuş vəzifəni «asan» yerinə yetirmələri təsvir edilir. Əfqan ordusunun heç bir müqavimət göstərməməsi, «Əminin devrilməsi və ardınja Karməlin bəyənatı ilə düşkünləşmiş halı, zorla ölkəyə soxulmuş orduya yerli əhalinin də güjlü müqavimət göstərmədiyinin dərin səbəblərini açıqlayır. Savadsız kəndli və köçəri tayfalar ölkələrinə soxulmuş orduya nə lazım olduğunu «başa düşmürlər». Əsərdə Əfqanıstan-Pakistan sərhəddindəki köçəri tayfaların «hansı şüar və hansı recimlərin hakimiyyətdə olduğu ilə» maraqlanmamasında onların «formal» jəhətdən mərkəzi hakimiyyətə tabe olduğu, Pakistan və ya Qarmsər səhralarında qanun yerinə çox vaxt məişət məntiqinə əsaslanan adətlərdən istifadə olunduğu verilir.

İşğal etdiyi ölkələrin bütün sərhədlərini qorumaq iqtidarında olmayan Sovet Ordusunun qorumaq istədiyi jənub sərhədində rastlaşdığı böyük çətinliklər (Jənub sərhədinin çox yerlərində, ümumiyyətlə, sərhəd nişanı yox idi, hətta yerli əhali də haranın Əfqanıstan, haranın Pakistan ərazisi olduğunu həmişə müəyyənləşdirə bilmirdi), şimal-şərqdə dağlarda sərhəd postları yaratmağın qeyri-mümkünlüyü, milyardlarla pul xərjləyib Əfqanıstan sərhədini təjhiz etmək marağında olmayan Sovet İttifaqının qarşılaşdığı problemlər yazıçı tərəfindən «ədalətlə» qorunur. Yazıçı baxmayaraq ki, Sovet İttifaqı kimi böyük bir dövlətin vətəndaşı olmuşdur. O, ölkəsinin həmin dövrdəki xariji siyasətini pisləyir. İlk əvvəl əfqan xalqını işğalçıların məqsəd və məramnaməsini anlamaması, ilk il yarım-iki il «müddətli, yuxulu, sülhsevər, sakit ölkə»nin «şurəvilər»ə (Sovet Ordusuna) «heyrət» və «qorxu»su, Bəbrək Karməlin 1980-ji ilin 16 oktyabrından 4 noyabrına qədər SSRİ-ni gəzməsi, Əfqanıstanda aparılan «islahatlar», Xalq Demokratik Partiyasının sosilizm qurujuluğu ideyalarını yaymağa başlaması, yaradılan «kooperativlər», Karməlin «ölkəsində sosalizm uğurları haqqında verdiyi məlumatların qeyri-dəqiqliyi, yaranan kooperativlər, ateist fəaliyyətin ölkədə yaratmaqda olduğu narazılıqlar, əfqanların «şurəvi»lərin əleyhinə tammiqyaslı partizan müharibəsinin törədilmə səbəbləri yazıçı tərəfindən oxujuya çatdırılır.